**CAMAL MUSTAFAYEV**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
mustafayev1954@mail.ru

# NAXÇIVAN ŞƏHƏRİNİN SƏNƏTKARLIQ HƏYATI (XVIII-XIX ƏSRLƏR)

Yaşı minilliklərlə ölçülən Naxçıvan şəhəri uzun müddət yalnız Azərbaycanın deyil, bütün Yaxın və Orta Şərqin mühüm ticarət və sənətkarlıq ərkəzlərindən biri kimi şöhrət qazanmışdır. Bir tərəfdən tranzit əhəmiyyəti daşıyan ticarət yolları üzərində yerləşməsi, digər tərəfdən ətrafda yerləşən ərazilərin xammalla bol olması şəhərin sürətlə böyüməsi, onun iqtisadi həyatının əsasını təşkil edən sənət istehsalının inkişafı üçün əlverişli şərait yaratmışdı. Şəhərin inkişafında onun ayrı-ayrı vaxtlarda inzibatı mərkəzə, hətta paytaxt şəhərinə çevrilməsi də əhəmiyyətli rol oynamışdır. Bütün bunların nəticəsi idi ki, artıq erkən orta əsrlər dövründə Naxçıvan 150 min nəfər əhalinin yaşadığı böyük bir şəhərə çevrilmişdi [22,s.109-142].

Naxçıvan bölgəsinin müxtəlif vaxtlarda dəfələrlə dağıdıcı müharibələrin meydanına çevrilməsinə baxmayaraq Naxçıvan şəhəri uzun müddət mühüm ticarət və sənətkarlıq mərkəzi kimi öz mövqeyini nəinki qoruyub saxlaya bilmiş, hətta daha da inkişaf etmişdi. Bu məsələdə heç şübhəsiz ki, şəhərin müəyyən müddət Azərbaycan Atəbəyləri dövlətinin (1136-1225) paytaxtı olması da öz təsirini göstərmişdi. Heç də təsadüfi deyildir ki, bu dövrdə Azərbaycanda olmuş səyyahlardan biri Naxçıvan şəhərini yer üzərində ən çox əhali yaşayan böyük bir şəhər adlandırır və burada çalışan sənətkarları öz işlərinin mahir ustaları kimi xarakterizə edir[20,s.54]. Naxçıvan şəhərinin orta əsrlər tarixinin tədqiqatçısı R.Məmmədov göstərir ki, bu dövrdə şəhərdə yüksək keyfiyyətli saxsı və ağac məmulatları, müxtəlif növ parçalar və ziynət əşyaları istehsal edilirdi [6,s.44-45].

XIII əsrdə baş vermiş monqol işğalları, Azərbaycanın digər şəhərləri kimi, Naxçıvan şəhərinin də amansız şəkildə dağıdılması ilə nəticələndi. Monqol işğallarının şahidi olmuş müəlliflədən biri Naxçıvanın tamamilə dağıdılmasından ürək ağrısı ilə danışır[15,s.171]. Bundan sonrakı dövrlərdə şəhər bərpa edilib müəyyən qədər dirçəlsə də, nəinki özünün monqol işğallarına qədərki qüdrətini bərpa edə bilmədi, əksinə, daha da tənəzzülə uğradı. XVI-XVII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri Naxçıvan şəhəri üçün daha ağır nəticələrə gətirib çıxardı. Şəhər dəfələrlə əldən ələ keçərək amansızcasına dağıdıldı. Bu müharibələrin başa çatmasından 34 il sonra Azərbaycanda olmuş fransız səyyahı I.Şarden Naxçıvanı 80 faiz dağıdılmış şəhər adlandırır və orada cəmisi 2 min evin qaldığını göstərir [14,s.63].

Lakin XVIII-XIX əsrlər də Naxçıvan şəhərinin inkişafı üçün əlverişli olmadı. Böyük İpək yolunun əhəmiyyətini itirməsi ilə əlaqədar Səfəvilər dövlətində XVII əsrin sonlarından başlamış iqtisadi böhranın şah Sultan Hüseynin (1694-1722) yarıtmaz siyasəti nəticəsində daha da

dərinləşməsi Naxçıvan şəhərindən də yan keçməmişdi. 1727-ci ildə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə verlən məlumatlar göstərir ki, J.Şardenin Azərbaycanda olmasından keçən 54 il ərzində Haxçıvan şəhərində yaşayan əhalinin sayı, təxminən 2,5 dəfə azalmışdı. J.Şardenin şəhərdə 2 min evin olması haqqında məlumatını əsas götürsək, onda 1673-cü ildə burada 10 min nəfər əhalinin yaşdığını müəyyənləşdirə bilərik. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə isə şəhərdə yaşayan cəmisi 785 nəfər vergi ödəyicisinin adı qeydə alınmışdı[9,s.10] ki, bu da, təxminən 4 min nəfər əhali deməkdir.

Bütün XVIII əsrdə və XIX əsrin əvvəllərində bölgədə baş vermiş hərbi qarşıdurmalar, xüsusilə feodal ara müharibələri, eləcə də Ağa Məhəmməd şah Qacarın hücumları və Rusiya-İran müharibələri onun yenidən dağıntılara məruz qalmasına və əhalisinin sayının daha da azlmasına səbəb olmuşdu. XIX əsrin əvvəllərində tərtib edilmiş sənədlərdən birində yazılırdı ki, "Naxıvan bir qədər əvvəl hücumla alınmış şəhəri xatırladır və aralarında alçaq daxmalar yerləşən xarabazarlıqan, daş, torpaq və gil yığınından ibarətdir"[1,v.6]. Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə Naxçıvan cəmisi 700 evin qeydə alındığı kiçik bir şəhərə çevrlmişdi. Bu evlər şəhərdə tarixən formlaşmış Əlixan, Şahab, Sarvanlar və Qurdlar məhəllələrini təşkil edirdi[17,s.69-70].

Azərbaycanın Rusiya tərəfindən işğalı ölkədə müstəmləkə rejimini bərqərar etsə də, hərbi əməliyyatların sona çatması ilə əlaqədar yaranmış siyasi sabitlik ölkədə şəhər həyatının inkişafı üçün əlverişli şərait yaratdı. Uzun müddət davam etmiş müharibələr nəticəsində ciddi dağıntılara məruz qalmış Naxçıvan şəhəri də tədricən bərpa olunmağa və əhalisinin sayı artmağa başladı. Əgər 1831-ci ildə şəhərdə 5470 nəfər əyali yaşayırdısa[1,v.8-9], 1897-ci ildə onun sayı artaraq 8790 nəfərə çatmışdı [21,s.66]. Bununla belə, qeyd etmək lazımdır ki, rus müstəmlkəçiliyi dövründə bərqərar olmuş siyas sabitliyə baxmayaraq, Naxçıvan şəhəri monqol işğalı dövrünə qədərki qüdrətini yenə də bərpa edə, Azərbaycanın böyük şəhərlərindən birinə çevrilə bilmədi. Bizim fikrimizcə, bunun başlıca səbəblərini Naxçıvan şəhərinin nəhəng Rusiya imperiyasının ucqarlarından birinə çevrilməsində, onun uzun müddət dəmir yolu xətlərindən kənarda qalmasında axtarmaq lazımdır. Rusiya müstəmləkəçiliyi dövründə Naxçıvan bazarlarının Rusiyanın özündə və Avropa ölkələrində istehsal edilən ucuz sənaye məhsulları ilə doldurulması da şəhər iqtisadiyyatının inkişafı yolunda ciddi maneələr yaratdı. Belə məhsullarla rəqabət şəhər iqtisadiyyatın əsasını təşkil edən sənət istehalının nəinki inişaf edərək fabrik-zavod mərhələsinə keçməsinə imkan vemədi, hətta onun bir çox sahələrinin tənəzzülə uğrayaraq tamamilə sıradan çıxmasına gətirib çıxardı.

Mövcud materialların təhlili göstərir ki, əvvəllər olduğu kimi, XVIII-XIX əsrlərdə də Naxçıvan şəhərinin iqtisadi həyatının əsasını sənət istehsalı təşkil edirdi. Bunu XIX əsrdə şəhərdə yaşayan əhalinin sosial tərkibinə dair statistik məlumatlar da təsdiq edir. İ.Şopenin Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövrünə aid məlumatlarından aydın olur ki, bu dövrdə şəhərdə ticarət və sənətkarlıqla məşğul olanların sayı 715 nəfərə çatırdı və onların 400 nəfərdən çoxunu

ancaq sənətkarlar təşkil edirdi[28,s.343-344]. Elə həmin dövrə aid olan Naxçıvan şəhərinin kameral təvirində də təxminən belə mənzərənin şahidi oluruq: şəhərdə fəaliyyət göstərən 631 nəfər tacir və sənətkarın 449 nəfərini ancaq sənət istehsalı ilə məşğul olanlar təşkil edirdi[1,v.16-18]. Əgər hər sənətkar ailəsinin, orta hesabla, 5 nəfərdən ibarət olduğunu nəzərə alsaq, onda həmin dövrdə Naxçıvan şəhərində yaşayan 5470 nəfər əhalinin yarıdan bir qədər azının – 2250 nəfərinin ailə üzvləri ilə birlikdə sənətkarların təşkil etdiyinin şahidi olarıq.

XVIII-XIX əsrlərdə Naxçıvan şəhərinin sənətkarlıq həyatında parça toxuculuğu, ilk növbədə isə müxtəlif növ pambıq parça istehsalı daha geniş yayılmışdı. Naxçıvan diyarının tarixən xam pambıq istehsalının əsas mərkəzlərindən biri olması bu məsələdə mühüm rol oynamışdı. Müxtəlif dövrlərə aid mənbələrdə bölgədə pambıq istehsalına dair kifayət qədər məlumata rast gəlmək mümkündür. Hələ XVII əsrdə Azərbaycanda olmuş Övliya Çələbi Naxçıvan diyarını xam pambıq və müxtəlif növ pambıq parça istehsalının əsas mərkəzlərindən biri kimi xarakterizə edir[29,s.118]. Xanlıqlar dövründə Naxçıvanda pambıq becərilməsinin geniş miqyas alması haqqında O.Yevetski məlumat verir. O, yazırdı ki, burada becərilən pambıq yerli sənətkarların tələbatını ödəməklə yanaşı Bəyazit, Qars, Tiflis və Qarabağa da göndərilirdi[18,s.216]. Xanlığın Əlincəçay mahalının pambıq plantasiyaları öz yüksək məhsuldarlığı ilə seçildiyindən İran-Qacar dövlətinin daima diqqət mərkəzində olurdu. Arxiv sənədinin verdiyi məlumata görə bu mahaldan "əldə olunan məhsulun yarısı xəzinəyə ödənilirdi ki, bu da hər il iki min tümən təmiz gəlir demək idi"[2,v.2]. Rus müstəmləkəçiliyi dövründə Naxçıvan diyarında pambıq istehsalının həcmi daha da artmışdı. XIX əsrin sonlarında onun istehsalı bir heçə dəfə artaraq 157.511 pud təşkil etmişdi[13,s.43].

Xammal ehtiyatlarının bolluğu bütün Naxçıvan diyarında, o cümlədən Naxçıvan şəhərində pambıq parça istehsalının inkişafı üçün əlverişli şərait yaradırdı. XVIII əsrin 20-30-cu illərində olmuş Osmanlı istilası dövründə şəhərdə pambıq parça istehsalının geniş miqyas almasını bez parçaların satışı zamanı toplanması nəzərdə tutulan xüsusi "bez damğası" ("tamğai-kirbas") adlı vergi maddəsinin təsis olunması da təsdiq edir. Türk hakimiyyət oranları bu maddəni hər il 12 min ağçaya müqatiəyə verirdilər[9,s.30]. Rus müstəmləkəçiliyinin ilk illərində şəhərdə pambıq parça istehsalı üzrə ixtisaslaşmış 40 emalatxana fəaliyyət göstərirdi. Həm bu emalatxanalarda çalışan bəzzazların, həm də ev şəraitində işləyən toxucu qadın toxucuların ümümi sayı 126 nəfərdən çox idi[17,s.94;26,58].

Naxçıvan şəhərində fəaliyyət göstərən pambıq parça toxucularının əksəriyyəti bez parça istehsalı üzrə ixtisaslaşmşdı. Onu da göstərmək lazımdır ki, bez parçalar Naxçıvan diyarının yalnız Naxçıvan və Ordubad şəhərlərində deyil, xammalın bol olduğu kəndlərində də geniş yayılmışdı. Bu sənətin hələ xanlıqlar dövründə Əlincəçay, Naxçıvan və Əylis mahallarının kəndlərində inkişaf etməsi haqqına məlumat var. Arxiv sənədi əsasında apardığımız hesablamalara görə Rusiya işğalı

ərəfəsində bu mahallarda 300-dən çox kənd sənətkarı pambıq parça istehsalı ilə məşğul olurdu [2,3,4].

Şəhərdə fəaliyyət göstərən emalatxanalarda ağ rəngdə toxunan bez parçaları sonralar müxtəlif rənglərə boyamaqla yeni parça növləri əldə edilirdi. Övliya Çələbi hələ XVII əsrdə Naxçıvanda boyama, basma və qələmkarlıq üsulu ilə pambıq parça istehsal edilməsi haqqında məlumat verir[29,s.118]. Etnoqrafik tədqiqatlardan məlum olur ki, bez parçanı qırmızı rəngə boyamaqla şilə, göy rəngə boyamaqla qədək, mavi rəngə boyamaqla isə çadra adlandırılan parçalar hazırlanırdı[7,s.281-282].

Naxçıvan şəhərində basma naxış üsulu ilə parça istehsalı da xeyli inkişaf etmişdi. Əslində xeyli dərəcədə bədii dəyərə malik olan belə parçaların istehsalında toxucularla yanaşı boyaqçılar və qəlibçilər də iştirak edirdi. Belə ki, üzərində nəbati və həndəsi naxışlar həkk olunmuş qəliblər qəlibçilər tərəfindən, tələb olunan rənglər isə boyaqçılar tərəfindən hazırlanırdı. Rənglərin və naxışların müxtəlif kombinasiyalarından istifadə etməklə midqal, kəlağayı, çit və qələmkar kimi bədii parçalar istehsal edilirdi [5,s.58;11,s.115]. XIX əsrin 80-ci illərində Naxçıvan şəhərində basma naxış üsulu ilə müxtəlif növ pambıq parça istehsal edən 26 nəfər sənətkar fəaliyyət göstərirdi [25,s.236].

Əldə olan materialların təhlili göstərir ki, Naxçıvan şəhərində pambıq parça istehsalı geniş yayılsa da, heç də həmişə sabit xarakter daşımamışdır. Bu özünü zolaqlı toxunan alaca adlı pambıq parçaların istehsalında daha aydın şəkildə göstərirdi. Naxçıvan şəhəri XVI-XVII əsrəldə bu növ parça istehsalının mərkəzi kimi şöhrət qazansa da[16,s.170] tədqiq etdiyimiz XVIII-XIX əsrlərdə onun istehsalı tamamilə dayanmışdı. Hər halda mənbələrdə bu haqda heç bir məlumata rast gəlmədik. Oxşar sözləri bürmet və fata kimi pambıq parşalar haqqında da söyləmək olar.

Uzun müddət Naxçıvan şəhərində pambıq parça istehsalının əsasını təşkil edən bez parça istehsalında da XIX əsrin ikinci yarısından başlayaraq dərin tənəzzül başlandı. 1863- il məlumatına görə burada cəmisi 2 nəfər pambıq parça toxucusu qeydə alınmışdı[24,s.48]. Onu da göstərmək lazımdır ki, XIX əsrin ikinci yarısından başlayaraq pambıq parça istehsalının tənəzzülü yalnız Naxçıvan şəhərinə aid hadisə olmayıb bütün Cənubi Qafqaz üçün xarakterik idi. Basma və qələmkar kimi parçaların istehsalında özünü daha çox göstərən bu tənəzzülün səbəbini Qafqaz Kustar Komitəsi İranda istehsal edilən bu növ parçaların bölgəyə kütləvi şəkildə idxal edilməsində görür [23,s.32].

XVIII-XIX əsrlərdə Naxçıvan şəhərində sənət istehsalının aparıcı sahələrindən birini gön-dəri məmulatı istehsalı təşkil edirdi. Bir tərəfdən Naxçıvan diyarında bu sənət sahəsinin xammalla təmin olunmasında mühüm rol oynayan maldarlığın inkişaf etməsi, digər tərəfdən isə əhali arasında gön-dəri məmulatlarına tələbatın yüksək olması bu sənət sahəsinin inkişafı üçün əlverişli şərait yaradırdı. Gön-dəri məmulatlarının ilkin emalı ilə uyğunlaşdırılmış emalatxanalarda çalışan

dabbağlar məşğul olurdu. Hər bir emalatxananın gücü orada istifadə edilən çənlərin sayu və tutumu ilə müəyyən edilirdi[27,s.428-430]. Dabbağlar tədarük etdikləri gön və dərini bu çənlərdə aşılayırdılar. Aşılama prosesində cır nar, kəpək, əhəng, sağrı tumu, sarağan yarpağı, mis ovuntusu kimi vasitələrdən istifadə edərək gön, müşkü, tumac, sağrı, kosala kimi məmulatlar əıdə edirdilər. Bu məmulatlar başmaqçılıq, çəkməçilik, papaqçılıq, sərraclıq kimi sənət sahələrində əsas xammal rolunu oynayırdı.

Naxçıvan şəhərində dabbağ məmulatına tələbatın yüksək olması müəyyən vaxtlarda bu işlə məşğul olanların sayının artmasına səbəb olurdu. Əgər 1831-ci ildə şəhərdə 22 nəfər dabbağ qeydə alınmışdısa[1,v.16-18], 1865-ci ildə onlaron sayı artaraq 33 nəfərə çatmışdı [24,cədvəl 5].

Gön-dəri məmulatlarının bolluğu həm Naxçıvan şəhərində, həm də Naxçıvan dairəsində müxtəlif növ ayaqqabı istehsalına güclü təkan vemişdi. Mənbələr əsasında apardığımız hesablamalara görə XIX əsrin 30-cu illərində Naxçıvan dairəsində qeydə alınmış 46 nəfər çəkməçi və başmaqçının 11 nəfəri Naxçıvan şəhərində fəaliyyət göstərirdi[1,v.16-18;17,s.96-97]. Naxçıvanlı ayaqqabı ustaları daha çox tufliyə bənzər dikdabanlı başmaq və uzunboğaz çəkmələr istehsal edirdlər. Başmaq istehsalı zamanı əsas xammal kimi müxtəli rənglərə boyadılmış tumac dərilərdən istifadə olunurdu. Evliya Çələbi yazırdı ki, Naxçıvan sakinlərinin ayaqqabıları arasında müxtəlif rəngli tumacdan tikilmiş “papuşlar” üstünlük təşkil edir [10,s.12-13].

Toxuculuq sənətinin və gön-dəri məmulatı istehsalının inkişafı Naxçıvan şəhərində bu sənət sahələri ilə sıx bağlı olan boyaqçılığın da inkişafını zəruri edirdi. Heç şübhəsiz ki, burada boyaqçılıq sənətinin inkişafında Naxçıvan diyarının boyaq vasitələri və bitkiləri ilə zəngin olması da mühüm rol oynamışdı. Son orta əsrlər dövründə Naxçıvan diyarında qırmızı rəng almaq üçün yetişdirilən boyaq otu bitkisi nəinki yerli boyaqçıların tələbatını ödəyir, həm də böyük partiyalarla xarici ölkələrə ixrac edilirdi[16,s.187]. Araz çayı sahillərindəki batqlıqlarda geniş yayılmış “qırmız” adlandırılan böcəklər də qırmızı rəng almaq üçün əla vasitə hesab olunurdu. Naxçıvan boyaqçıları boyama prosesində bitki və heyvan mənşəli digər çoxlu vasitələrdən də istifadə edirdilər.

Bütün Naxşıvan diyarında boyaqçılıq sənəti geniş yayılsa da, onun əsas mərkəzi Naxçıvan şəhəri idi. “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə 1727-ci ildə Naxçıvan şəhərində ildə 1200 ağçaya müqatiəyə verilən böyük bir boyaqxananın fəaliyyət göstərməsi haqqında məlumat verilir[9,s.30]. XIX əsrin 30-cu illərində burada fəaliyyət göstərən boyaqxanaların sayı artaraq 5-ə çatmışdı[19,s.97]. Boyaqçılıq sənəti Naxçıvan şəhərində XIX əsrin sonlarında daha yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdə şəhərdə fəalyyət göstərən 8 boyaqçılıq emalatxanasının illik istehsal gücü o dövr üçün böyük hesab edilən 1600-2000 rubla çatırdı[26,s.139]. Onu da göstərmək lazımdır ki, şəhərdə fəaliyyət göstərən boyaqxanaların əksəriyyəti boyaqçıdan daha yüksək bilik və bacarıq tələb edən göy rəngə boyamaq üzrə ixtisaslaşmışdı.

Öyrənilən dövrdə Naxçıvan şəhərində metalişləmə sənətinin hər biri müstəqil xarakter daşıyan dəmirçilik, misgərlik, qalayçılıq, gümüşbəndlik, zərgərlik, silahsazlıq və s. sahələri də ikişaf etmişdi. Onu da göstərmək lazımdır ki, misgərlik sənəti istisna olmaqla, metalişləmə sənətinin yerli xammal bazası xeyli zəif idi. Bununla belə, yerli sənətkarlar kənar yerlərdən gətirilən xammal hesabına əhalinin müxtəlif növ metal məmulatlarına olan tələbatını ödəyirdi. Bu sözləri ilk növbədə, say etibarı ilə daha çox olan dəmirçilərə aid etmək lazımdır. Təkcə o faktı göstərmək kifayətdir ki, 1865-ci ildə Naxçıvan qəzasında fəaliyyət göstərən 198 nəfər dəmirçinin 21 nəfəri Naxçıvan şəhərində çalışırdı[24,s.48, əlavə]. Dəmirçilərin böyük əksəriyyəti kənd təsərrüfatının müxtəlif sahələrində istfadə edilən əmək alətləri, o cümlədən dəmir kotan, xış, oraq, dəryaz, yaba, toxa istehsal edirdilər. Onların arasında məişət avadanlıqları, sənətkarlar üçün əmək alətləri, habelə məişət əşyaları istehsal edənlər də var idi. Şəhərdə nəcib metalların emalı ilə daha çox gümüşbəndlər məşğul olurdu. 1831-ci il məlumatına görə burada fəaliyyət göstərən 18 nəfər zərgər və gümüşbənd[1,v.16] qadınlar üçün baş, boyun, bilək, barmaq və paltar bəzəkləri istehsal edirdi. Naxçıvanlı zərgərlərin çəçik və xirtdəklik adı ilə hazırladıqları qızıl boyunbağılar həm də özlərinin yüksək bədii dəyərləri ilə seçilirdilər[7,s.200-201]. Naxçıvan şəhərində fəaliyyət göstərən silahsazlar çaxmaqlı və qapaqlı tüfənglər, habelə müxtəlif növ tapancalar, eləcə də soyuq silahlar istehsal edirdilər. Bununla belə, istər soyuq, istərsə də odlu silah istehsal edən sənətkarların sayı elə də çox deyildi. 1831-ci il məlumatına görə şəhərdə cəmi 3 nəfər sənətkar tüfəng, 3 nəfər isə tüfəng qundağı istehsal etməklə məşğul olurdu[1,v.15-18].

Naxçıvan şəhərində çalışan sənətkarların xeyli hissəsini tikinti sənətinin müxtəlif sahələri ilə məşğul olanlar təşkil edirdi. Bu sənətkarlar arasında öz saylarına görə bənnalar xüsusilə seçilirdilər. Rusiya-İran müharibələrinin başa çatmasından sonra bölgədə yaranmış sabitliklə əlaqədar olaraq tikinti işlərinin həcminin artması bənnalara olan tələbatı xeyli artırmışdı. Əgər 1831-ci ildə şəhərdə cəmisi 7 nəfər bənna qeydə alınmışdısa, qısa müddət ərzində onların sayı beş dəfə artaraq 35 nəfərə çatmışdı [26,s.200]. Bu dövrdə Naxşıvan şəhərində tikinti sənətinin ən gözəl nümunələri kimi Naxçıvan xanı Kalbalı xan (1787-1820) tərəfindən tikdirlmiş Xan sarayını, general Cəmşid xan Naxçıvanskinin atası Cəfərqulu xan tərəfindən tikdirilmiş yaşayış evini, qızlar məktəbi üçün inşa edilmiş binanı, 1894-cü ildə memar Məhəmməd Təqi tərəfindən tikdirilmiş “Cəfəriyyə” məscidini və çoxlu sayda digər tikililəri göstərmək olar [8;12,s.14-15].

Naxçıvan şəhərində ən geniş yayılmış qədim sənət sahələrindən biri də dulusçuluq olmuşdur. Başlanğıcını neolit dövründən götürən bu sənət IX-XII əsrlərdə yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdə Naxçıvan şəhərində fəaliyyət göstərən çoxlu sayda dulusçuluq emalatxanalarında müxtılif rənglərlə bəzədilmiş çıraq, boşqab, kasa, piyalə dolça və s. istehsal edilirdi[6,s.47-48]. Saxsı məmulatı istehsalında hələ erkən orta əsrlər dövründən başlanmış ixtiaslaşma XV-XVI əsrlərdə daha da dərinləşmişdi. Bu dövrdə şəhərdə dulus ustalarının bir qismi

əhalinin məişətində istifadə edilən saxsı məmulatları, digər qismi isə tikinti keramikası istehsalı üzrə ixtisaslaşmışdı. Naxçıvan şəhərində tikilmiş məscid və hamamların yerli istehsalın məhsuli olan yüksək keyfiyyətli kaşılarla bəzədilməsi haqqında türk səyyahı Övliya Çələbi məlumat verir [10,s.13].

Son orta əsrlər dövründə baş vermiş Səfəvi-Osmanlı müharibələri dulusçuluq sənətinin də dərin tənəzzülə uğramasına, onun müəyyən sahələrinin, ilk növbədə isə tikinti keramikası istehsalının tamamilə sıradan çıxmasına səbəb oldu. Heç də təsadüfi deyildir ki, tədqiq etdiyimiz XVIII-XIX əsrlərdə dulusçuluqdan bəhs edən mənbələrdə ancaq məişət keramikasından söhbət açılır. Yalnız yerli əhali arasında saxsı qablara tələbatın hələ də yüksək olması[25,s.234] dulusçuluğun bu sahəsinin inkişafı üçün müəyyən şərait yaradırdı. Bununla belə, bu sahənin özündə də uzun müddət hökm sürmüş tənəzzül yalnız Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən xeyli sonra müvəqqəti yüksəlişlə əvəz olundu. Mənbələrin verdikləri məlumatlardan aydın olur ki, XIX əsrin 60-cı illərinə qədər şəhərdə hər birində 3-4 nəfər işçi çalışan cəmi 3 dulus emalatxanası fəaliyyət göstərirdi [1,v.15]. Yalnız əsrin 70-ci illərində bu emalatxanaların sayı bir neçə dəfə artaraq 16-ya çatmışdı [26,s.151]. Lakin bu yüksəliş də elə uzunömürlü olmayıb XIX əsrin sonlarından daha dərin tənəzzüllə əvəz olundu. Mütəxəssislər bunun başlıca səbəbini bölgəyə çini qabların kütləvi şəkildə idxal edilməsi ilə bağlayırla r[27,s.335].

Göründüyü kimi, XVIII-XIX əsrlərdə Naxçıvan şəhərinin iqtisadi həyatında sənət istehsalı mühüm yer tuturdu. Lakin uzun müddət davam etmiş müharbələr nəticəsində şəhərin kiçilməsi bu dövrdə sənətkarlıq məhsullarının da keyfiyyətinin aşağı düşməsinə və həcminin xeyli azalmasına gətirib çıxarmışdı.

## ƏDƏBİYYAT


1.Azərbaycan DTA, f. 24, siy.1, iş 353
2.Azərbaycan DTA, f. 24, siy.1, iş 354
3.Azərbaycan DTA, f. 24, siy.1, iş 355
4.Azərbaycan DTA, f. 24, siy.1, iş 368
5.Əliyeva G. Azərbaycanın bədii parçaları və tikmələri. Bakı, 1990
6.Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977
7.Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı, 1999
8.Naxçıvan abidələri ensiklopeiyası. Naxçıvan, 2008
9.Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllif Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, Elm, 2001
10.Övliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi S.Onullahi. Bakı, 1997
11.Rasim Əfəndi. Azərbaycanın bədii parçaları (XVI-XVIII əsrlər). //Azərbaycan SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət ser., 1968, № 3
12.Səfərli H. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəsiyyətlər (Naxçıvan

materialları əsasında). //AMEA Naxçıvan bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər ser. 2006, № 2
13.Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX –XX əsrin əvvəllərində.Bakı, 2008
14.Şarden I. Səyahətnamə. (tərcümə edəni Vaqif Aslanov). Bakı, 1994
15.Вильгелм де Рубрук. Путеществие в Восточные страны. Перевод А.И Малеина. СПб., 1911
16.Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку, 1982
17.Григорьев В. Статистическое описание Нахичеванской провинции. СПб., 1833
18.Евецкий О.С. Статистичское оисние Кавказского края с присовокуплением статьи: Политическое состояние Закавказского края на исходе XVIII века и сравнение оного с нынешним. СПб., 1835
19.Журнал Министерство Внутренних Дел. 1834, № 1
20.Миклухо-Маклай Н.Д. Географическое сочинение XIII века на персидском языке. //Ученые записки ИВ АН СССР, т. IX, 1954
21.Мурадалиева Э.Б. Города Северного Азербайджана во второй половине XIX века. Баку, 1991
22.Никитин К. Город Нахичевань и нахичеванский уездь. //СМОМПК, вып. II, Тифлис, 1882
23.Очеты о деятельности кстарного комитета и учреждений по кустарной промышленности на Кавказе в 1912-1914 гг. Тифлис, 1915
24.Сборник статистических сведений о Кавказе. т. I, Тифлис, 1869
25.Сборник статистических сведений о Кавказе. т.VII, Тифлис, 1880
26.Сумбатзаде А.С. Промышленность Азербайджана XIX веке. Баку, 1964
27.Хатисов К.И. Кустарные промыслы Закавказского края. //Отчеты и исследования по кустарной промышленности в России. ч.II, СПб., 1894
28.Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852
29.Эвлия Челеби. Книга путешествия (Извлечения из сочинения турецкого путешественника XVII века). Вып. 3, М., 1983